**Vətəndaş müraciətlərinə baxılması haqqında**

2018-ci ilin I rübü ərzində Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatına vətəndaşlardan, ümumilikdə **976** müraciət (2017-ci ilin müvafiq dövrü ilə müqayisədə **172** vahid və ya **21,4%** çox) daxil olmuşdur.

Hesabat dövründə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatına daxil olmuş vətəndaş müraciətlərindən **771-i** ərizə (daxil olmuş müraciətlərin 79%-i) və **205-i** (daxil olmuş müraciətlərin 21%-i) şikayət olmuşdur.

Müraciətlər daha çox 1 nömrəli Sahə İnzibati Ərazi Dairəsi üzrə **223** müraciət, Rəsulzadə qəsəbəsi üzrə **155** müraciət, Binəqədi qəsəbəsi üzrə **142** müraciət, Biləcəri qəsəbəsi üzrə **137** müraciət, 2 nömrəli Sahə İnzibati Ərazi Dairəsi üzrə **108** müraciət, Xocəsən qəsəbəsi üzrə **63** müraciət, 28 May qəsəbəsi üzrə **14** müraciət daxil olmuşdur.




Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından 437 (daxil olmuş müraciətlərin 44,8%-i), Milli Məclisdən 14 (daxil olmuş müraciətlərin 1,4%-i), Nazirlər Kabinetindən 18 (daxil olmuş müraciətlərin 1,8%-i) və digər qurumlardan 121 (daxil olmuş müraciətlərin 12,4%-i) müraciət daxil olmuşdur.




Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatında 2018-ci ilin I rübündə ümumilikdə **811**, o cümlədən, Rayon İcra Hakimiyyətinin başçısı tərəfindən **95** vətəndaş qəbul edilmişdir.

Son dövrlərdə ölkəmizdə biznes mühitinin inkişaf etdirilməsi, vətəndaşların mənzil-məişət problemlərinin həlli istiqamətində atılan addımlar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 yanvar 2016-cı il tarixli 8 nömrəli "Bakı şəhəri Binəqədi və Qaradağ rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər barədə" Qərarının icrası və digər məsələlərlə əlaqədar olaraq vətəndaş müraciətlərinin dinamikasında artım müşahidə olunmaqdadır. Vətəndaşlar və sahibkarlar dövlət tərəfindən yaradılmış şəraitdən faydalanaraq yerli icra hakimiyyətlərinə daha çox müraciət edirlər.